# ÇARİÇA I. YEKATERİNANIN ERMƏNİ QURULTAYINA, ŞƏXSƏN PATRİARXLAR YESAYİYƏ VƏ NERSESƏ, QARABAĞIN ERMƏNİ MƏLİKLƏRİNƏ VƏ VƏKİLLƏRİNƏ YAZDIĞI RƏSMİ MƏKTUBU

**1726-cü ilin fevralın 23-ü**

Mehriban və bağışlayan Xudanın rəhmi ilə, biz, Yekaterina, Rusiyanın çariça və hökmdarı, və b.

Mehriban patriarxlar Yesayiyə və Nersesə, mehriban hökmdar Yeqana və yüzbaşı Avana, digər bütün mehriban yüzbaşılara və vəkillərə, bütün mehriban erməni xalqına bizim imperator mərhəmətlik və təbriklərimizi göndəririk.

Bu mərhəmətli məktub ilə sizə bəyan edirik ki, sizdən yanımıza göndərilən Kəndxuda Çələbi bizə çatıb və onunla bərabər göndərdiyiniz vərəqə alındı. **Həmin vərəqənizdə izah etdiyiniz və tələb etdiyiniz barədə [fikirlərimizi] biz Çələbiyə sizə şifahi bəyan etməyi emr etdik. Ona görə ki, siz ona etibar eləyirsiniz, onun şifahi izahından sizə verilən mərhəmətimizi dərk edəcəksiniz. Biz də öz növbəmizdə şübhələnmirik ki, siz ondan razı qalacaqsınız, çünki biz sizi mərhəmətimizlə ümid veririk.**

Sankt-Peterburqda verilib. 1726-cı ilin fevralın 22-si.

**Mənbə: Barseğov Yu., Dağlıq Qarabağ beynəlxalq hüququnda və beynəlxalq siyasətində, Sənədlər və rəylər, iki clddə, Moskva, 2008, c.1, s. 61.**